**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

## Naxçıvan Muxtar Respublikasının ərazisində istifadəyə buraxılan (yalnız idxal və Azərbaycan Respublikasında istehsal edilən) avtonəqliyyat vasitələrindən atmosferə atılan zərərli maddələrə dair tələblərin Avropa standartlarına uyğunlaşdırılması haqqında

Naxçıvan Muxtar Respublikasının ərazisində istifadəyə buraxılan avtonəqliyyat vasitələrindən atmosferə atılan zərərli maddələrə dair tələblərin Avro-2 standartlarına uyğunlaşdırılmasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikasının ərazisində istifadəyə buraxılan (yalnız idxal və Azərbaycan Respublikasında istehsal edilən) avtonəqliyyat vasitələrindən atmosferə atılan zərərli maddələrin bu məqsəd üçün müəyyən edilmiş standartın tələblərinə uyğunluğunu təmin etmək məqsədilə buraxılış ilindən asılı olaraq avtonəqliyyat vasitələrinin muxtar respublikaya idxalına aşağıdakı qaydada məhdudiyyətlər tətbiq edilsin:

xarici ölkələrdən (markasından asılı olmayan)
idxal olunan avtonəqliyyatlar üçün - buraxılış ili 5 ildən yuxarı;
MDB ölkələrindən idxal
olunan avtonəqliyyatlar üçün - buraxılış ili 2 ildən yuxarı.

2. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi bu qərarın 1-ci bəndi ilə təsdiq edilmiş məhdudiyyətləri həyata keçirsinlər.

3. Bu qərar 2012-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri: Ə.Baxşıyev**

«13» yanvar 2012-ci il

№ 07